# ELM

# НАУКА

*Qüvvət elmdədir,*
*başqa cür heç kəs*
*Heç kəsə üstünlük*
*eyləyə bilməz.*
*Nizami Gəncəvi*

*Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin qəzeti*

Ayda iki dəfə nəşr olunur

**№ 13 (1155) ✹ Cümə, 15 iyul 2016-cı il ✹ Qəzet 1984-cü ildən çıxır ✹ Qiyməti 50 qəpik**


# NAXÇIVANDA BEYNƏLXALQ KONFRANS

***İyulun 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq "Naxçıvan" Universitetində "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda beynəlxalq konfrans keçirilib.***

Öncə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında olan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Beynəlxalq konfransı giriş sözü ilə **Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov** açıb və tədbirin əhəmiyyətini vurğulayıb. "Hər bir xalqın qədimliyi onun tarixində, tarix isə mənbələrdə və abidələrdə yaşayır" deyə bildirən V.Talıbov, Naxçıvan torpağının Azərbaycan xalqının tarixini yaşadan abidələrlə zəngin olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, muxtar respublika ərazisində 1200-dən çox tarixi abidə mövcuddur ki, onların da yarıdan çoxu dünya və ölkə əhəmiyyətli abidələrdir. 1996-cı ildə keçirilən "Uluslararası qaynaqlarda Naxçıvan" simpoziumu Naxçıvan abidələrinin elmi və real mənbələr əsasında öyrənilməsinin əsasını qoymuş, bu sahədə yeni istiqamətlər və vəzifələr müəyyənləşdirmişdir. O vaxt qarşıya qoyulan vəzifələrdən biri də qəhrəmanlıq və mədəniyyət tariximizi özündə yaşadan qalaların öyrənilməsi idi.

Ali Məclisin sədri qalalar barədə tədqiqatların aparılmasının tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb: "Qalalar təkcə sığınacaq yeri, mühafizə və ya müdafiə tikilisi deyil. Qalalar - bu ərazidə yaşayan əcdadlarımızın həyat tərzini, dini inanclarını, dövlətçilik ənənələrini, mədəniyyətini və memarlıq sənətini özündə yaşadan mədəniyyət nümunələridir". V.Talıbov ümummilli lideri Heydər Əliyevin Naxçıvan qalalarının əhəmiyyətini önə çəkən sözlərini də konfrans iştirakçılarının nəzərinə çatdırıb: "Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdığını göstərir".

Ali Məclisin sədrinin sözlərinə görə, son tədqiqatların nəticəsi olaraq Naxçıvan ərazisində 80-ə yaxın qala müəyyənləşdirilib. Naxçıvan qalaları ilkin yaşayış yerləri, mədəniyyət və sənətkarlıq mərkəzləri kimi də diqqəti cəlb edir. Onlar şəhərsalma mədəniyyətinin mühüm elementi kimi böyük dəyərə malikdir.

Naxçıvan qalalarının memarlıq quruluşuna əsasən də seçildiyini vurğulayan məruzəçi istər inşaat texnikasının yüksək səviyyəsinə, istərsə də planlaşma-məkan quruluşuna görə Naxçıvan memarlıq məktəbinin izlərini özündə əks etdirən qalalarımızın bu gün həm də müasir memarlıq sənətinin inkişafı baxımından öyrənilməsinin zəruriliyini önə çəkib: "Bütün bunlar "Naxçıvan qalaları: tarixdə və günümüzdə" mövzusunda keçirilən beynəlxalq konfransın böyük elmi, mədəni və tarixi əhəmiyyətə malik olduğunu göstərir. Naxçıvan qalalarının öyrənilməsi Naxçıvan tarixinin və bununla yanaşı Azərbaycan tarixinin də öyrənilməsinə mühüm töhfədir".



Ali Məclisin sədri çıxışının sonunda beynəlxalq konfransda əldə olunan nəticələrin elmimiz üçün faydalı olacağına inamını ifadə edərək, konfransın işinə uğurlar arzulayıb.

Sonra **AMEA-nın prezidenti, akademik Akif Əlizadə** çıxış edib.

Konfransda **Türkiyənin İstanbul Universitetinin müəllimi, tarix elmləri doktoru Oktay Belli** "Tunc və Erkən Dəmir dövründə Şərqi Anadolu və Naxçıvan qalaları arasında oxşarlıq" mövzusunda məruzə edib. O, Naxçıvanın dünya əhəmiyyətli abidələrlə zəngin bir diyar olduğunu, son illər muxtar respublikada qədim tarixi abidələrin, xüsusilə qalaların bərpa olunmasının bu ərazidəki zəngin mədəni irsi qorumaqla yanaşı, həm də bəşəriyyət tarixinin öyrənilməsinə xidmət etdiyini vurğulayıb.

*(Davamı 2-ci səhifədə)*

# NAXÇIVANDA BEYNƏLXALQ KONFRANS

*(Əvvəli 1-ci səhifədə)*

"Keçmişlə gələcək arasında körpü yaradan Naxçıvan qalaları türklərin mübarizlik və qəhrəmanlıq tarixindən soraq verir" deyə bildirən məruzəçi qeyd edib ki, Şərqi Anadoluda və Nax-



çıvanda aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan qalalar, tapılan maddi-mədəniyyət nümunələri hər iki ərazidə mövcud olan qalaların eyni tikinti xüsusiyyətlərinə malik olduğunu bir daha təsdiq edir.

**Amerika Birləşmiş Ştatlarının Emori Universitetinin professoru Hillari Qopnik** "Şərur vadisinin Son Tunc dövrü qalaları" mövzusunda məruzəsini təqdim edib. Bildirib ki, ABŞ-Azərbay-



can layihəsi 2008-ci ildən etibarən Şərur vadisində həyata keçirilir. İlk dörd ildə üç əsas dövrün qalıqlarına rast gəldiyimiz Oğlanqala təpəsində iş aparılıb. 2013-cü ildən etibarən Qız qalası təpəsi yaxınlığında, Orta Tunc və Erkən Dəmir dövrünə aid yataqlarda qazıntı işləri aparırıq. Ərazidə Orta Tunc dövrünə aid kurqanlar, böyük ölçülü memarlıq abidələri və Son Tunc dövrünə aid qala aşkar edilib. Bu da Naxçıvandakı qədim və yüksək mədəniyyəti nümayiş etdirir. Məruzəçi qeyd olunan məsələlərin "Naxçıvan qalaları: tarixdə və günümüzdə" beynəlxalq konfransı üçün faydalı olacağına inamını bildirib.

**AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev** "Naxçıvan qalaları: dövrləri və xarakterləri" barədə çıxış edərək Naxçıvanın antik, orta əsrlər, yeni və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngin olduğunu deyib. Bu abidələrin içərisində qalaların özünəməxsus yeri olduğunu, Naxçıvan qalalarının başlıca olaraq müdafiə, sonralar dini, ticarət, sənətkarlıq məqsədilə istifadə edildiyini qeyd edib. Onun sözlərinə görə, tarixin sonrakı dövrlərində də Naxçıvan qalaları ölkəmizin ictimai-siyasi və mədəni həyatında fəal rol oynayıb: "Bu



gün NMR-nın tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Bu abidələr heç vaxt indiki qədər diqqət və qayğı ilə əhatə olunmayıb, xalqımıza tanıdılmayıb, təbliğ edilməyib. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tarixi-mədəni irsimizə göstərdiyi diqqət və qayğının ifadəsidir".

Akademik İsmayıl Hacıyev sonda muxtar respublikanın ziyalıları və beynəlxalq konfransın iştirakçıları adından Ali Məclisin sədrinə minnətdarlığını bildirib.

Sonda konfrans iştirakçıları Naxçıvan Dövlət Televiziyasının hazırladığı "Naxçıvan qalaları" sənədli televiziya filmini izləyiblər.

Plenar iclası "nakhchivan.az" internet saytında canlı yayımlanan beynəlxalq konfrans iyulun 10-da AMEA Naxçıvan Bölməsində "Naxçıvan qalalarının tarixi", "Naxçıvan qalalarının arxeoloji tədqiqi", "Əlincə qalası: tarixi və orta əsrlərdə mövqeyi", "Naxçıvan qalaları ədəbiyyat və folklorda" bölmələri üzrə öz işini davam etdirib.

***

**AMEA-nın prezidenti, akademik Akif Əlizadənin** çıxışını oxucularımıza təqdim edirik:

**Çox hörmətli Vasif müəllim!**
**Hörmətli konfrans iştirakçıları!**
**Əziz naxçıvanlılar!**

Qədim və zəngin mədəniyyətə, güclü dövlətçilik ənənələrinə malik Naxçıvanın memarlıq abidələrinə, xalqımızın qəhrəmanlıq və vətənpərvərlik simvolu olan Naxçıvan qalalarına həsr olunmuş belə bir tədbirdə iştirakımdan məmnunluğumu ifadə edir, hörmətli Vasif müəllim, bu dəvətə görə Sizə alimlərimiz adından, şəxsən öz adımdan dərin minnətdarlığımı bildirirəm!

Bugünkü beynəlxalq konfransın Naxçıvan qalalarına həsr olunması heç də təsadüfi deyil. Tarix boyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan diyarı ilk növbədə ölkəmizin əsas dövlətçilik mərkəzlərindən biri olmuşdur. Orta əsrlərdə paytaxtı Naxçıvan şəhərində yerləşmiş Atabəylər dövləti Azərbaycan xalqına intibah mədəniyyətini bəxş etmiş, daha sonralar Naxçıvanşahlıq dövləti, Naxçıvan Çuxur Səəd Bəylərbəyliyi, Naxçıvan xanlığı yalnız bu diyarın deyil, bütövlükdə Azərbaycanın siyasi və sosial-mədəni inkişafında əhəmiyyətli rol oynamışdır.

Sovet hakimiyyəti illərində, 1924-cü ildə çətin mübarizə şəraitində yaradılmış Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycanın bu ayrılmaz parçasının inkişafına öz töhfələrini vermişdir.

Xalqımızın Ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyev taleyin hökmü ilə Naxçıvanda yaşayıb-işləyərkən 1990-cı ildə Naxçıvan parlamentinin adından "Sovet Sosialist" sözlərinin çıxarılmasına, üçrəngli Azərbaycan bayrağının dövlət rəmzi kimi qəbul etdirilməsinə nail olmuşdur. Ümumiyyətlə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr vəzifəsində işlədiyi illər Azərbaycan tarixinin ən şərəfli mərhələsini təşkil edir və müstəqil dövlətimizin yaranmasında misilsiz rol oynayıb.

Naxçıvan diyarındakı zəngin memarlıq abidələri, onun ayrılmaz tərkib hissəsi olan qalalar məhz Azərbaycan dövlətçilik tarixinin, xalqımızın azadlıq uğrunda mübarizə əzminin simvolu kimi xüsusi əhəmiyyətə malikdir. Bu mənada bugünkü beynəlxalq konfrans Azərbaycanın ictimai və humanitar elmlərinin inkişafı baxımından əhəmiyyətli olmaqla yanaşı, millilik və vətənpərvərlik tərbiyəsi, xalqımızın qəhrəmanlıq tarixinin təbliği baxımından da xüsusi məna kəsb edir.

Hamınıza yaxşı məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan şəhərinin 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı elan edilməsi haqqında Sərəncam imzalamışdır. Naxçıvan İslam sivilizasiyasının əsas mərkəzlərindən biridir. Məşhur Əshabi-Kəhf mağaraları ilə tanrıpərəstliyini bəyan edən Naxçıvan təkallahlıq əsasında qurulmuş İslam dinini dərhal özündə sintez edərək qəbul etmiş, qədim türk sivilizasiyası ilə birləşdirərək intibah mədəniyyəti səviyyəsinə çatdırmışdır. Bu mənada Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı seçilməsi tamamilə qanunauyğun hadisədir.

Konfransın digər bir əhəmiyyəti isə müasir şəraitdə Azərbaycanın apardığı informasiya müharibəsi ilə bağlıdır. Bununla əlaqədar bir faktı xatırlatmaq istəyirəm. Hamınıza yaxşı məlumdur ki, bütün beynəlxalq hüquq prinsiplərinin və ümumbəşəri insani dəyərlərin ziddinə olaraq Azərbaycan torpaqlarının bir hissəsini işğal etmiş ermənilərin əsas hədəflərindən biri də qədim Azərbaycan diyarı olan Naxçıvandır. Hər cür yalan və uydurmanı özlərinin elmi yanaşmasına çevirən dırnaqarası "erməni tədqiqatçıları" bu regionla bağlı uzun illərdir ki, uydurmalar yaymaqdan çəkinmirlər.

Ötən il Akademiyanın 70 illik yubileyinə həsr olunmuş təntənəli iclasda Azərbaycan Respublikasının Prezidenti, möhtərəm cənab İlham Əliyev xüsusi olaraq qeyd etdi ki, indiki informasiya müharibəsi şəraitində alimlərin üzərinə çox böyük məsuliyyət düşür. Cənab Prezident bu baxımdan tarix elminin inkişafını mühüm prioritetlərdən biri kimi müəyyənləşdirdi. Belə bir şəraitdə bu torpaqların ta qədimdən xalqımıza məxsusluğunun əsas göstəricisi, tarixi sübutu, pasportu olan qalaların tədqiqi və təbliği elmi və ictimai olmaqla yanaşı, ümummilli baxımdan da xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda bu konfrans cənab Prezidentin çağırışına da layiqli bir addımdır.

Çox təqdirəlayiq bir haldır ki, bugünkü beynəlxalq konfrans, adında da ifadə olunduğu kimi, öz ideya mündəricəsi etibarilə tarix və müasirliyin vəhdətinə əsaslanır. Tarixdə olduğu kimi, bu gün də Naxçıvan müasir Azərbaycanın sosial-siyasi və elmi-mədəni həyatında yerinə yetirdiyi məsuliyyətli və şərəfli missiya baxımından, sözün həqiqi mənasında, müstəqil Azərbaycan dövlətçiliyinin və siyasət tarixinin əsas mərkəzlərindən biridir. Hazırda ölkəmizdə tanınmış dövlət xadimi hörmətli Vasif Talıbovun rəhbərliyi ilə yüksək səviyyədə idarə olunan Naxçıvan Muxtar Respublikası nəinki Azərbaycanın, geniş mənada dünyadakı hərtərəfli inkişafın önündə gedir.

*(Davamı 3-cü səhifədə)*

# NAXÇIVANDA BEYNƏLXALQ KONFRANS

*(Əvvəli 2-ci səhifədə)*

Beləliklə, qədim tarixə və çoxcəhətli inkişaf ənənələrinə malik olan Naxçıvan Azərbaycan tarixində mühüm yer tutmuş, ölkəmizə və dünyaya bir çox qüdrətli simalar, böyük dövlət xadimləri, elm, ədəbiyyat, mədəniyyət üzrə görkəmli şəxsiyyətlər bəxş etmişdir.

Bir tərəfdən Naxçıvanda Azərbaycan elmi əsrlər boyu inkişaf etmiş, böyük izlər buraxmışdır. Digər tərəfdən isə Naxçıvanda gedən ictimai-siyasi, iqtisadi-mədəni, elmi-ədəbi proseslər böyük elm üçün zəngin, tükənməz mövzu mənbəyinə çevrilmişdir. Nəticə etibarilə, bütün bunlar Vətən elminin inkişafında mühüm rol oynamışdır.

Bununla belə, etiraf etməliyik ki, keçmiş Sovet İttifaqı dövründə, bütövlükdə, Azərbaycanda olduğu kimi, Naxçıvan haqqında yazılan elmi əsərlərdə də real tarixdən, gerçəklikdən daha çox ideologiya aparıcı mövqe tutduğu üçün regionun taleyi və inkişafı ilə bağlı bir çox mətləblərdən əsaslı şəkildə bəhs etmək mümkün olmamışdır. Naxçıvan Muxtar Respublikasında elm müstəqil dövlətçilik maraqları və milli maraqlar əsasında yalnız Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra daha məqsədəuyğun surətdə və hərtərəfli şəkildə inkişaf etmişdir.

Xüsusən ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təşkil edilməsi regionda elm sahəsindəki çoxəsrlik ənənələri yenidən dirçəltmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Vasif Talıbovun muxtar respublikanı bütün istiqamətlər üzrə və yüksək səviyyədə inkişaf etdirmək məqsədinə uğurla xidmət edən özünəməxsus idarəetmə sistemində elmin və təhsilin xüsusi yeri vardır. Məhz bu siyasət nəticəsində bu gün Naxçıvanda elm yeni və daha yüksək mərhələyə qədəm qoymuşdur. Azərbaycan Milli Elmlər Akademiyasına Naxçıvan Muxtar Respublikasından seçilmiş həqiqi və müxbir üzvlər ölkə üzrə qəbul edilən nüfuzlu elm adamlarıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Dövlət Universitetində nəşr edilmiş sanballı elmi əsərlər, qiymətli fundamental monoqrafiyalar Vətən elminin inkişafında mühüm yer tutan tədqiqatlardır. Çoxillik axtarışlar və ardıcıl yaradıcılıq səyləri əsasında Muxtar Respublikada yaradılmış sanballı ensiklopedik nəşrlər, salnamələr və antologiyalar yüksək elmi səviyyədə qəbul edilən ciddi və əhəmiyyətli əsərlərdir. Biz bu fikirdəyik ki, Naxçıvanda yaşayıb-yaradan elm adamlarının çoxillik birgə səylərinin nəticəsində meydana çıxmış 3 cildlik "Naxçıvan tarixi" monoqrafik tədqiqatı son illərdə Azərbaycanda humanitar və ictimai elmlər sahəsində meydana çıxmış ən sanballı nəşrlərdən biridir. Heç şübhəsiz, azərbaycanşünaslığa böyük töhfə olan bu üçcildlik kitab Azərbaycan tarixinin üzvi tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir.



Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyinin, Rəyasət Heyətinin regionda elmin daha da inkişaf etdirilməsinə nail olmaq üçün Naxçıvan Bölməsinin və Naxçıvandakı ali məktəblərin fəaliyyətinin Akademiya ilə daha məqsədyönlü şəkildə əlaqələndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə 5 iyun 2014-cü il tarixdə imzalanmış protokol qarşılıqlı əlaqələrin inkişafına öz töhfəsini verməkdədir. Artıq Naxçıvan Bölməsi ilə Milli Elmlər Akademiyasının digər Bölmələri və elmi-tədqiqat institutları arasında birgə əməkdaşlıq layihələri meydana çıxmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu ilə birlikdə hazırlanan 2 cildlik "Naxçıvan coğrafiyası"nın birinci cildi artıq başa çatmışdır. Seysmologiya sahəsindəki birgə əməkdaşlıq da səmərəli şəkildə davam etdirilir. Naxçıvan Muxtar Respublikasında yaradılan seysmoloji stansiyaların yenidən qurulmasında və işində Akademiyanın seysmoloq alimlərinin özünəməxsus payı vardır.

Akademiyanın İnformasiya Texnologiyaları İnstitutunun Naxçıvan Bölməsi və Naxçıvan Dövlət Universiteti ilə əlaqələri hər iki qurumda doktorantura təhsili proqramında mühüm yer tutan İnformatika fənlərinin virtual tədrisi və imtahanların onlayn qaydada qəbul edilməsi üçün ixtisaslaşmış və müasir texnologiya ilə təchiz edilmiş auditoriyaların istifadəyə verilməsi ilə nəticələnmişdir. Artıq muxtar respublikadan olan doktorantların İnformatika imtahanları Bakıya gəlmədən - distant şəkildə qəbul olunur.

Akademiyanın Fiziologiya İnstitutu uzunömürlülük layihəsi üzrə birgə elmi tədqiqatların aparılması üçün Naxçıvan Bölməsi ilə ilkin müzakirələr aparmışlar. Yəqin ki, səfər müddətində herontologiya istiqamətində konkret problemlər üzrə tədqiqat sahələri müəyyənləşəcək. AMEA Botanika İnstitutu Naxçıvan Bölməsinin Bioresurslar İnstitutu ilə birlikdə geniş əməkdaşlıq layihələri təklif edir. Ümid edirəm ki, Bakıda və Naxçıvanda botanika üzrə mövcud olan böyük potensialın əlaqələndirilməsi ölkə elminə fayda verəcək. Nizami adına Ədəbiyyat İnstitutu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Bölməsi ilə videokonfranslar keçirmək ənənəsini davam etdirməkdədir. Bu sıraya artıq Dilçilik İnstitutu da qoşulmuşdur. Videokonfranslar elmin ən son nailiyyətlərini qarşılıqlı şəkildə müzakirə etmək üçün mühüm əhəmiyyətə malikdir.

Bir məsələni də xüsusi vurğulamağı faydalı hesab edirəm. Bir neçə gün bundan öncə biz Şamaxı Astrofizika Rəsədxanasında Rəyasət Heyətinin səyyar iclasını keçirərkən orada səsləndi ki, bu elmi qurumun Batabat Astrofizika Rəsədxanası ilə qarşılıqlı əlaqələrinin yaradılmasına böyük ehtiyac vardır. Alimlərimiz belə hesab edirlər ki, Batabat Astrofizika Rəsədxanasında qalaktikada müşahidə aparmaq üçün, Şamaxı Rəsədxanasında isə ölçmə, nəzəri təhlil və qiymətləndirmə üçün zəngin elmi baza və potensial mövcuddur. Fikrimcə, hörmətli Vasif müəllim, ayrı-ayrılıqda mövcud olan və hər iki elmi qurum üçün eyni dərəcədə əhəmiyyətli və zəruri olan bu potensialın qarşılıqlı surətdə əlaqələndirilməsinə ciddi ehtiyac yaranıb. Əgər razılıq olarsa, ən yaxın vaxtlarda Şamaxı Astrofizika Rəsədxanası və Batabat Astrofizika Rəsədxanası arasında qarşılıqlı əməkdaşlıq müqaviləsinin imzalanması məsələnin kompleks həllinə böyük dəstək verə bilər.

Bu gün ilk dəfədir ki, bizim səfərimizdə Akademiyanın yeni yaranmış Neft və Qaz İnstitutunun və Fizika İnstitutunun rəhbərləri də iştirak edirlər. İnanıram ki, onların institutlarında da Naxçıvandakı elm və ali təhsil qurumları ilə qarşılıqlı əməkdaşlıq layihələri üçün imkanlar müəyyənləşdiriləcək. Biz bilirik ki, Fizika İnstitutu Naxçıvanda elmi dərəcəyə malik yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasında yaxından iştirak edir. Bununla belə, artıq Naxçıvan üçün fizika üzrə elmlər doktorlarının hazırlanmasına dəstək verib yol açmaq olduqca vacibdir.

**Hörmətli Vasif müəllim.**

Bizim Sizinlə birgə Azərbaycan Milli Elmlər Akademiyası ilə Naxçıvan Muxtar Respublikasının elm və ali təhsil qurumlarının əlaqələndirilməsi haqqında imzaladığımız protokolun qəbul edildiyi vaxtdan cəmi iki il ötməsinə baxmayaraq bu qısa müddətdə böyük işlər görülmüşdür. Bundan başqa, həm Bakıda - Akademiyanın ayrı-ayrı elmi tədqiqat institutlarında, həm də Naxçıvan Muxtar Respublikasında keçirilmiş elmi konfranslarda alimlərimiz qarşılıqlı surətdə yaxından iştirak edirlər. Rəsmi opponentlik və elmi rəhbərlik sahəsində də qarşılıqlı əlaqələr inkişaf etməkdədir.

Əlbəttə, bütün bunlar yaxşı başlanğıcdır və möhkəm təməllərdir. Zaman bizdən daha böyük elmi nəticələr əldə etmək, elmi məktəblər yaratmaq üçün daha geniş əlaqələr qurmağı, birgə işlərimizin yeni formalarını və vasitələrini tapmağı tələb edir.

**Hörmətli Vasif müəllim!**
**Hörmətli konfrans iştirakçıları!**

Çıxışımı yekunlaşdıraraq qeyd etmək istərdim ki, heç şübhəsiz, Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutları və Naxçıvan Muxtar Respublikasının elm və ali təhsil qurumları arasında sıx elmi əməkdaşlıq bundan sonra da yeni-yeni nailiyyətlərin, elmi uğurların əldə edilməsində mühüm rol oynayacaq.

Sonda mən Naxçıvan xalqının dünya ədəbiyyatına bəxş etdiyi dahi şair Hüseyn Cavidin aşağıdakı misraları ilə fikrimi yekunlaşdırmaq istəyirəm:

*Əvət! Ancaq mübarizə*
*mənlik verir hər millətə,*
*Nəşə sərpən yalnız odur*
*hər şəxsə, hər cəmiyyətə.*
*Hər yurdu çatdıran odur*
*özlədiyi səadətə,*
*Odur ancaq qovuşduran*
*insanları məhəbbətə!*

***Hazırladı: Nigar Əsədova***